# ƏHMƏDOV ƏSƏD CƏLAL OĞLU



Əhmədov Əsəd Cəlal oğlu 15 iyul 1970-ci ildə Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində müəllim ailəsində anadan olmuşdur. Doğma kənddə orta məktəbi bitirdikdən sonra Bakıdakı 5 saylı texniki-peşə məktəbində oxumuşdur. 1989-cu ilin mayında hərbi xidmətə çağırılmış və Almaniyada tank qoşunları hissəsində qulluq etmişdir. Əsəd hərbi xidmətdən sonra Bakıya qayıtmış, inşaat idarəsində öz peşəsində çalışmışdır. Ermənistan işğalçı ordusunun Azərbaycana qarşı hərbi əməliyyatlarının genişlənməsi Ə.Əhmədov Nəsimi rayon hərbi komissarlığının çağırışı ilə 1992-ci ilin martında Milli Ordu sıralarında hərbi xidmətə getdi. Elə həmin vaxtdan başlayaraq o, Şuşa rayonunun Zarıslı, Salatınkənd və Turşsu məntəqələrində gedən döyüşlərin fəal iştirakçısı olmuşdur. O, Laçın ətrafında 28 nəfər əsir düşmüş soydaşımızın azad edilməsində əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. Əsəd Əhmədov 1992-ci ilin iyulunda Ağdam rayonunun Şelli, Abdal, Gülablı, Güllücə, Papravənd və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşmuş, komandiri olduğu tank ilə düşmənin atəş nöqtələrinin məhv edilməsində igidlik nümunəsi göstərmişdir. O, iyulun 31-də Papravənd kəndi ətrafında gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Əsəd Cəlal oğlu Əhmədova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adı verilmişdir. Bakı şəhəri Yasamal rayonundakı küçələrdən biri qəhrəmanın adını daşıyır.